# İslam adət - ənənələri milli məişətdə

Min dörd yüz ildən artıq bir dövrdə islamı qəbul edən Azərbaycan türkləri bu tarixi zaman ərzində təbii ki, müsəlman mədəniyyətinin ən əxlaqi və ibrətamiz cəhətlərini qəbul etməklə, eyni zamanda milli-mənəvi dəyərlər sistemində dini bayramların müqəddəsliyini də qoruyub saxlamışdır. İslam ənənələrini mühafizə edən dini bayramlar milli məişətimizdə o qədər dərin kök salmışdır ki, hətta yetmiş illik ateizm təbliğatı da bu inam və inancın qarşısında sönük, gücsüz və məğlub oldu.

Sovet hakimiyyəti illərində respublikamızda, islam dini çox vaxt nahaqdan, əsası olmadan gericillik meyli ilə əlaqələndirilir, onun ümum-mədəni və əxlaqi dəyərləri heçə endirilirdi. Bütövlükdə mənəvi-mədəni irsə etinasız münasibət, laqeydlik və haqsızlıq xalqın öz tarixi yaddaşını itirməyə doğru sürüklənməsi niyyətindən doğurdu. İslam dini ənənələrinin təhrif olunmuş, məhdudlaşdırılmış şəkil almasının bir səbəbi də siyasi quruluşun, ideoloji təbliğatın təsirindən doğurdusa, digər səbəbi bilavasitə dini iqtidarın, din xadimlərinin islamın əsl mahiyyətinə təzadlı münasibətindən, mənafelərinin mövhumata, xürafata rəvac verməsindən irəli gəlirdi. Dinin təhrif edilmiş halda təbliği probleminin yalnız sovet dövrünün məhsulu hesab etmək elmi cəhətdən doğru deyildir. Bu məsələ əslində az qala islamın özünün tarixi ilə bərabər ortaya çıxmışdır.

Həqiqətən də məzhəb ayrılıqları dinin çox vaxt siyasi alətə çevrilməsi reallıqları, bu baxımdan da ideoloji və dini iqtidarların, bəşəriyyətin üçüncü minilliyə qədəm qoyduğu bir vaxtda belə xalqın mövhumat və xürafata yuvarlandırılmasında maraqlı olduqları gerçəkliyi göz önündədir. Bununla belə islam ənənələri milli məişətimizdə öz müsbət rolunu oynamaqda, cəmiyyətə bəşəri insani dəyərlər təlqin etməkdədir.

Dini ənənələri kulturoloji baxımdan dəyərləndirərkən əvvəla, nəzərə alınmalıdır ki, müstəqillikdən əvvəlki onilliklər ərzində din ilə bağlı problemlər müəyyən ideoloji qəliblərə salınmış təsəvvürlər çərçivəsində müzakirə olunur, ictimai şüurda belə bir rəy yaradılmasına cəhd göstərilirdi ki, din elmi-texniki tərəqqi dövründə ağır böhran vəziyyəti keçirir və bir müddət sonra öz-özünə aradan qalxacaqdır. Dindən uzaq şüurlara din haqqında bu cür təsəvvürlər bu və ya digər şəkildə keçmişin də hadisələrinə şamil edilir, belə hesab edilirdi ki, din mədəniyyətin inkişafına həmişə əngəl olmuşdur. Halbuki, qədim irsimizdə, dini-mədəni ənənələrimizdə din ilə mədəniyyətin, din ilə elmin qarşılıqlı əlaqələri sahəsində iftixar nümunəsi ola biləcək məqamlar daha çoxdur.

Bu gün milli və dövlət mənafelərimiz tələb edir ki, əsas mahiyyəti inam və inanclardan ibarət olan din yad təsirlərdən təmizlənsin, xalqı elmə, maarifə təmizliyə, paklığa, mənəvi saflığa, bəşəri dəyərlərin mühafizəsinə səsləsin. Bunun həyata tətbiqi üçün bir tərəfdən imkanlar genişlənirsə, digər tərəfdən dini dəyərlərimizə hər zaman zərbə vuran əks təbliğatlar bu gün daha geniş miqyaslı "hücuma" keçmişdir. Başqa sözlə Azərbaycanın müstəqil, suveren dövlət kimi beynəlxalq aləmdə yerini möhkəmlətməsi milli-mənəvi dəyərlərimizə hörmət hissini daha tələbkarlıqla ortaya qoyursa, dünyada cərəyan edən qloballaşma hərəkatı daha geniş vüsət alaraq bəşəri, humanist şüarlar altında cəmiyyətimizi pozmaqda, mənəvi həyatımızı zəhərləməkdədir. Bunu beynəlxalq miqyasda baş verən proseslər, siyasi mənafelər, ideoloji təbliğatlar, hegemonluq, dünyaya sahib olma iddiaları da sübut etməkdədir. Dünyada mövcud xammal ehtiyatlarına yiyələnmək, ucuz işçi qüvvəsinə sahib olmaq və s. kimi niyyətlər hərbi-iqtisadi gücə malik dövlətlərin qloballaşma pərdəsi arxasında gizlənən həqiqi məqsədləridir. Bu yolda əsas maneə isə milli mədəniyyətlər və mənəvi dəyərlərdir. Qloballaşmanın pozucu, assimilyasiyaedici təsiri həyat tərzimizə, yaşayışımıza, məişətimizə, ailə münasibətlərinə, mətbəximizə belə daxil olmaqdadır. Cəmiyyəti mənəviyyatsızlaşdırmaq - bu, bəd, şər, qeyri-insani güclərin məqsədlərinə nail olmaq yolunda ən əlverişli vasitədir. Bədxah qüvvələrin qarşısını kəsməyə qadir ən humanist, bəşəri, demokratik sərvətimiz isə milli-mənəvi dəyərlərimiz, dini ənənələrimiz, islami bayramlarımızdır.

Sovet dövründə islam dini ənənələrinin yaşadılmasına məhdudiyyətlər qoyulması və Azərbaycanın müstəqilliyə qovuşmasından sonra xalqımızın birdən-birə dini azadlıqlar əldə etməsindən yararlanan, fürsətdən istifadə edərək öz mənafelərini təmin etmək niyyətində olan xarici qüvvələr, yad təsirlər, bədxah qruplaşmalar bütün vasitələrlə xalqı həqiqi

islami yoldan sapındırmağa cəhd edirlər. Bu yolda dini missioner təşkilatların, məzhəb ayrılıqlarının qızışdırılmasına rəvac verən siyasilərin, sünni-şiə münaqişələrini daimi intriqa mənbəyi kimi təbliğatlarının əsas mövzusu olaraq diqqətdə saxlayan xarici dövlətlərin dağıdıcı, pozucu təsirləri xüsusi qeyd edilməlidir.

Yuxarıdakı amilləri nəzərə alaraq dövlət strukturlarından, dini qurumlardan tutmuş, özünü islam dininə mənsub edən hər bir Azərbaycan vətəndaşınadək hər kəs əsrlərlə həyat tərzimizin tərkib hissəsi olmuş islam dini ənənələrinin milli məişətimizdəki tərbiyəvi, demokratik, humanist rolunun sağlam istiqamətdə güclənməsinə çalışılmalıdır. Azərbaycan Respublikasının dövlət rəmzlərinin - himninin, gerbinin, bayrağının, Azərbaycan qəhrəmanı kimi fəxri adın yaradıldığı bir zamanda, milli özünəqayıdışın baş verdiyi, xalq ruhuna qayıdıldığı, milli və ümumi bəşəri dərklərin, islam əxlaqının vəhdətinin təmin edildiyi bir vaxtda yetişməkdə olan gənc nəsildə milli və dini şüuru formalaşdırmaq, onlarda milli ləyaqəti tərbiyə etmək ən zəruri bir problem kimi qarşıda durur.

Bəşəriyyətin üçüncü minilliyə qədəm qoyduğu bir vaxtda respublikamızda milli dirçəliş, milli oyanış, tarixin sirli qatlarının açılışı, mədəniyyət, dil və dinlə əlaqədar məsələlərin, İslam dəyərlərinin öyrənilməsi milli mənlik şüurunun formalaşdırılmasına, milli ləyaqətin tərbiyə olunmasına ciddi təkan vermiş, milli özünüdərki və özünütəsdiqi qüvvətləndirmişdir. Buna görə də ailə və məktəbdən başlamış həyatın bütün sahələrində, milli məişətimizdə dini şüurun formalaşdırılmasına islami ənənələrin arzu edilən istiqamətdə möhkəmlənməsinə, insanların vicdan azadlığına xüsusi qayğı ilə yanaşması, bu sahədə planlı, sistemli, mütəşəkkil iş aparması vacibdir.

Bu gün milli məişətimizin ayrılmaz tərkib hissəsi olan islam dini ənənələri özündə, tarixən mövcud olmuş mənəvi, estetik, tərbiyəvi və s. dəyərləri sintetik halda cəmləşdirərək milli mentalitetin müəyyənləşdirilməsində aparıcı faktorlardan birini təşkil edir.

Azərbaycan cəmiyyətində dini ənənələrin daşıdığı funksiyanın mahiyyətindən bəhs edərkən qeyd edək ki, uzun illərin sıxıntılarından, hədə-qorxularından və məfkurə təqiblərindən sonra milli həyatımızda başlanan özünəqayıdış prosesi məhz dini ədəbiyyatın ayrı-ayrı nümunələrindən başlanmışdır. İllərlə bizə elə gəlib ki, hamımız öz keçmişimiz, milli qaynaqlarımız haqqında hər şeyi bilirik. Əslində isə bu gün böyük iftixarla öyündüyümüz və sanki birdən-birə yada saldığımız, qiymətləndirməyə başladığımız mənəvi dəyərlərimiz haqqında bildiyimiz heç də çox deyil. Çünki içimizdə nəhəng bir boşluğun olduğunu, keçmişimizlə bu günümüz arasında yaranmış uçurumun sərhədlərini qəflətən duymuşuq.

Getdikcə islam dininin çox mürəkkəb ayin, bayram, mərasim və ehkamları ilə yanaşı, onun qadağalar sistemi və əxlaq təlimlərinə daha düzgün riayət olunmağa başlanır. İslamın ayrılmaz bir hissəsini və başlıca ünsürlərindən birini təşkil edən bayram və mərasimlər geniş xalq kütləsi tərəfindən daha mütəşəkkil qaydada keçirilir. Artıq Qurban və Ramazan (Orucluq) bayramları dövlət səviyyəsində təntənəli qeyd edilir. Deməli islamçılıq ənənələri xalqımızın milli məişətində möhkəmlənməklə, həm də dövlətçilik atributlarının, rəmzlərinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Ümumiyyətlə islamiyyətdən sonrakı türk dövlətlərinin bayraqlarında və dövlətçilik ənənələrində din mühüm yer tutmuşdur.

Müsəlmanlar üçün həcc, namaz, oruc və ya sədəqə nə dərəcədə vacibdirsə, müsəlman bayramları da islam mərasimlərinin ayrılmaz hissəsi kimi mütləq qeyd edilməlidir. Müsəlman bayramları islam dininin başlıca ehkamları ilə qarşılıqlı surətdə bağlıdır. Bütün müsəlman dünyasında hamı tərəfindən qəbul edilən bayramlar bunlardır: eydüləzha, yəni Qurban bayramı, eydülfitr, yəni Fitr bayramı, Mövlud bayramı, yəni Məhəmməd peyğəmbərin təvəllid günü, leylətülqədr, yəni, Taleyin həll edilməsi gecəsi, Qədr gecəsi, bir də Merac, yəni Məhəmməd peyğəmbərin göylərə qalxıb Allah dərgahına yetişdiyi ecazkar səyahətə həsr olunmuş bayram. Bu əlamətdar hadisələr hazırda bir çox müsəlman ölkələrində rəsmən ümumdövlət səviyyəsində qeyd edilir. Eydüləzha və eydülfitr bayramları lap əvvəldən müsəlmanların başlıca, ən əhəmiyyətli bayramları sayılmışdır. Müsəlmanların həftəlik bayram günü isə cümə günüdür.

Özünü Azərbaycan Demokratik Cümhuriyyətinin varisi hesab edən Azərbaycan Respublikası da tarixi varisliyə sadiq qalaraq xalqımızın əsrlərdən bəri tapındığı inam və inanclara, dini bayram və mərasimlərə ehtiramla yanaşmaqda, islam ənənələrinin milli məişətimizdə daha layiqincə təmsil olunmasına hər cür şərait yaratmaqda və qayğı göstərməkdədir.

**İlhamə Əliyeva**